**Erməni işğalçılarına qarşı 44-günlük Vətən Müharibəmiz Ali Baş Komandanın, Azərbaycan Ordusunun, xalqımızın zəfəri ilə başa çatdı və haqq savaşımız Azərbaycan tarixinə qızıl hərflərlə əbədilik yazıldı. Bu qələbəni Ali Baş Komandanın qətiyyəti, siyasi iradəsi, müzəffər ordumuzun şücaəti, cəsur əsgərlərimizin canı, müqəddəs şəhidlərimizin qanı, mərd xalqımızın birliyi hesabına qazandıq.**



# "Vətən sevgisinin müqəddəslik zirvəsi!" - 5 il



Təkcə bizim yox, digər dünya dövlətlərinin əksər siyasi xadimləri, hərbi mütəxəssisləri açıq şəkildə bəyan edirlər ki, 30 illik münaqişəni 44 günə sona çatdıran bu qısa müharibə dünya hərb tarixinə misli görünməmiş savaş kimi düşdü. Azərbaycan Ordusunun gücünü, Azərbaycan xalqının qüdrətini bəşəriyyətə sübut etdi. Ona görə erməni faşizminə qarşı qəhrəmanlıq savaşımız tarix boyu şanlı qürur mənbəyimiz olaraq qalacaqdır.

Vətən Müharibəmizdə kulminasiya nöqtəsi sayılacaq bir dövr yarandı. Bu da noyabrın 8-də Şuşanın, 9-da 70-dən artıq kəndin, 1 qəsəbənin, 8 strateji yüksəkliyin alınması idi. Həmişə deyilirdi ki, Şuşa kimdədirsə, Qarabağa nəzarət də ondadır! Bu danılmaz bir aksiomadır. Ordumuz dünya hərb tarixində misilsiz Şuşa əməliyyatı ilə fərqli bir savaş nümunəsi yaratdı. Uğurlu döyüşlərimizin nəticəsi kimi noyabrın 10-da Ermənistanın "ağ bayraq" qaldırması, kapitulyasiya etməsi, Azərbaycan, Rusiya prezidentlərinin və Ermənistanın baş nazirinin dekabrın 1-nə kimi daha 3 rayonun - Kəlbəcərin, Ağdamın və Laçının müharibəsiz qaytarılmasını nəzərdə tutan birgə bəyanat imzalaması tariximizə zəfər həftəsi kimi yazıldı.

Bu gün milli hərb tariximiz baxımından Azərbaycan son əsrlərin ən böyük zəfərini yaşayır. Şah İsmayılın, Nadir şahın qurduğu imperiyaların süqutundan sonra Azərbaycan ilk dəfə olaraq böyük miqyasda tarixi torpaqlarını qaytarmağa nail oldu. Siyasətçilər, politoloqlar, tarixçilər tarixi araşdırmalara əsasən belə qənaətə gəlirlər ki, əldə edilmiş bu qələbə Azərbaycan tarixində ən mühüm zəfər tarixlərindən biridir.

Müzəffər Prezidentimiz İlham Əliyev ötən zəfər günlərimizdə təkcə Ali Baş Komandan kimi cəbhədə gedən əməliyyatlara rəhbərlik etmədi. Mərdanə apardığımız bütün uğurlu əməliyyatlar Azərbaycana qarşı artan siyasi-diplomatik təzyiqlər şəraitində həyata keçirilirdi. Möhtərəm Prezidentimiz hər cür siyasi təzyiqlərə müdrik diplomatik addımları ilə dönməz bir dəyanətlə duruş gətirdi, ədalətli çıxışları ilə bütün haqsız qüvvələri çox böyük ustalıqla neytrallaşdırdı. İlham Əliyev cənabları xarici müxbirlərə verdiyi çoxsaylı müsahibələrində Azərbaycanın milli maraqlarının qətiyyətlə müdafiəsindən bir addım da geri durmadı, dünyada mövcud ikili standartları, riyakar siyasəti icra edən ölkələri öz televiziyalarına verdiyi müsahibələrində tamamilə ifşa etdi.

Söz yox ki, Vətən müharibəsi ərzində Gəncəyə, Bərdəyə, Tərtərə atılan ballistik və kasetli raketlər də birliyimizi pozmağa, millətimizin ruhunu qırmağa hesablanmışdı. Amma baş verən müharibə cinayətləri Azərbaycan xalqının iradəsini əzə bilmədi. Göstərilən təzyiqlərə baxmayaraq müdrik Ali Baş Komandan ətrafında tək yumruğa çevrilməyimiz həmin bəlalardan çıxmağımızda mühüm rol oynadı. Ölkədə milli həmrəyliyi, xalq-iqtidar birliyini daha da gücləndirən cənab İlham Əliyev Azərbaycan xalqının onun ətrafında sıx birləşməsinə, sonsuz etimadına, inam və dəstəyinə güvənib şərəfli və çətin missiyanı həyata keçirdi. Haqq işimizi yarıda qoymağa hesablanmış xarici qüvvələrin təzyiqlərinə cəsarətlə sinə gərən, onları dəf edən cənab İlham Əliyev əsl fədakarlıq nümunəsi nümayiş etdirməklə uzaqgörənlik, vətənpərvərlik, qətiyyət, əzm, prinsipiallıq, dönməzlik rəmzinə çevrildi. Nəticədə qazanılan Qələbə Azərbaycanın həm hərbi, həm diplomatik, həm də siyasi müstəvidə zəfər təntənəsi yaratdı.

Bu əlamətdar gün ilə bağlı Azərbaycan Hərb Tarixi Muzeyində " Vətən sevgisinin müqəddəslik zirvəsi!" mövzusunda tədbir keçirilib.

Tədbirdə Müdafiə Nazirliyinin hərbi hissələrinin, idarə və müəssisələrinin, ictimai birliklərin, təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər.

Muzeyin rəisi e.o.polkovnik Elşad Pənahov məruzə ilə çıxış edərək bildirib ki, Azərbaycan Ordusunun cəsur əsgər və zabitləri böyük fədakarlıq nümayiş etdirib Ermənistanın 30 il ərzində qurduğu nəhəng istehkamları yarıb keçərək düşmənin silahlı qüvvələrini darmadağın etdilər:

"Azərbaycanın tarixi Zəfəri ilə yekunlaşmış müharibə ədalətli və əsl Vətən müharibəsi idi. Bu Qələbəni Ali Baş Komandanın qətiyyəti , müzəffər ordumuzun şücaəti, xalqımızın birliyi, cəsur zabit və əsgərlərimizin peşəkarlığı, şəhidlərimizin fədakarlığı hesabına qazandıq".

Polkovnik E.Pənahov qeyd edib ki, "Dəmir Yumruq" adını almış hərbi əməliyyatların gedişi zamanı Azərbaycan Silahlı Qüvvələri cəbhəxanasında olan ən müasir silah və texnikadan yararlanmaqla düşmən ordusuna sarsıdıcı zərbələr endirdi:

"Müharibənin ilk günlərindən son günlərinə qədər ordumuzun yüksək səviyyədə idarə olunması, qərargahların, zabit, gizir və əsgərlərimizin qəhrəmanlığı, fədakarlığı sayəsində düşmən döyüş meydanında ağır məğlubiyyətə uğradıldı. Ordumuzun şəxsi heyəti döyüşlərdə möhkəm intizam, yüksək hazırlıq nümayiş etdirdi və döyüş hazırlığı prosesində qazandığı nailiyyətləri uğurla tətbiq etdi. Müharibə günlərində ordumuzun hərb sənətinə gətirdiyi taktiki yeniliklər bu gün dünyanın güc mərkəzlərində diqqətlə araşdırılır".

Məruzədə qeyd olunub ki, noyabrın 9-a qədər davam edən döyüşlər Ermənistan Respublikasının tam məğlubiyyəti - kapitulyasiyası ilə başa çatdı. Noyabrın 10-da gecə saat 3.00 radələrində Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyev, habelə Ermənistanın baş naziri Nikol Paşinyan hərbi əməliyyatların dayandırılması və Azərbaycanın Ermənistan üzərində tarixi Zəfərini şərtləndirən Bəyanatı imzaladılar:

"Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarını döyüşsüz tərk etməyə məcbur oldu. Beləliklə, Azərbaycan Ordusu dövlət başçısının rəhbərliyi ilə Vətən müharibəsində düşmənin işğalçı qüvvələrini qısa müddətdə darmadağın etdi və ölkəmizin ərazi bütövlüyünün bərpasına nail oldu.

Qoşunlarımız 44 gün ərzində "Bayraktar TB2" zərbə PUA-larından, İsrail istehsalı "Harop" kamikadze dronlarından geniş istifadə etməklə düşmənin hava hücumundan müdafiə sistemlərini, raket komplekslərini bir-birinin ardınca məharətlə sıradan çıxardı. Xüsusi qeyd etmək lazımdır ki, qardaş Türkiyənin ilk vaxtlardan nümayiş etdirdiyi siyasi dəstək Azərbaycanın bu mübarizədə tək olmadığını ermənilərə və havadarlarına ciddi siqnal oldu. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın açıq, birmənalı və sərt açıqlamaları Azərbaycan xalqını bu ədalətli savaşda daha da ruhlandırdı. Qarabağın ürəyi olan Şuşanın döyüş texnikası tətbiq edilmədən xüsusi təyinatlı qüvvələrimizin cəsur döyüşçüləri tərəfindən azad edilməsi müharibənin kulminasiyası oldu".

Məruzədə həmçinin hərbi əməliyyatlar zamanı Silahlı Qüvvələrimizin bütün qoşun növlərinin yüksək əzmkarlıq, dönməz iradə və igidlik nümunələri göstərdikləri vurğulanıb:

"Yüngül silahlarla silahlanmış döyüşçülərimizin sıldırım qayalarla dırmaşaraq alınmaz qala hesab edilən şəhərə girməsi və onu düşməndən təmizləməsi hərb tariximizin şanlı səhifələrindəndir. Bu əməliyyat bu gün də peşəkar hərbi mütəxəssislərin, ekspertlərin araşdırma mövzusudur.

Azərbaycan Ordusunun qarşısında duruş gətirə bilməyən, sarsıdıcı zərbələr altında geri çəkilən işğalçı Ermənistanın silahlı birləşmələri yenə də öz çirkin ənənələrinə sadiq qalaraq müharibə cinayətləri törətməkdən çəkinmədilər. Erməni faşistləri beynəlxalq hüquq və beynəlxalq humanitar hüququn norma və prinsiplərini kobud şəkildə pozaraq, mülki əhalini və infrastrukturu hədəfə alıb qadağan edilmiş kütləvi qırğın silahlarından istifadə etdilər. Təcavüzkar Ermənistan qüvvələrinin cəbhədən xeyli uzaqda yerləşən Gəncə, Mingəçevir, Yevlax, Daşkəsən, Xızı və Siyəzəni, cəbhəyanı Tərtər, Bərdə, Goranboy, Beyləqan və Ağcabədini müxtəlif istiqamətlərdən atəşə tutması nəticəsində azyaşlı uşaqlar, məktəbli yeniyetmələr daxil olmaqla yüzdən çox dinc sakinimiz erməni terrorunun qurbanı oldular. Bu hərbi cinayətlər və terror aktları Azərbaycan xalqının məğrurluğunu və iradəsini qıra bilmədi. Qəlbində Vətən sevgisi yaşadan igidlərimiz mənfur düşmənin layiqli cavabını verdilər".

Polkovnik E.Pənahov hərbi əməliyyatların gedişində xüsusi əhəmiyyət kəsb edən məqamlardan birinin informasiya müharibəsi müstəvisində mübarizənin düzgün təşkil edilməsi ilə bağlı olduğunu diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan bütün sahələrdə olduğu kimi, bu sahədə də fəaliyyətini uğurla qurmağa müvəffəq oldu:

"Ümumiyyətlə, 44-günlük müharibədə ölkəmiz Ermənistanı bütün komponentlər üzrə xeyli üstələdi. Düşmənin illərlə yaratdığı "məğlubedilməz ordu" mifi 44 gün ərzində bütün dünyanın gözü qarşısında Azərbaycan əsgəri tərəfindən fiaskoya uğradıldı. Noyabrın 9-a qədər davam edən döyüşlər Ermənistan Respublikasının tam məğlubiyyəti - kapitulyasiyası ilə başa çatdı".

Daha sonra tədbirdə çıxış edən 44-günlük vətən müharibəsi iştirakçıları polkovnik-leytenant Anar Abışov, mayor Zaur Güliyev, mayor Cəlal Şahverdiyev öz döyüş xatirələrini bölüşüblər.

HHQ-nin polkovnik-leytenantı Anar Abışov çıxışı zamanı qeyd edib ki, bu müharibə təkcə quru qoşunların qəhrəmanlığı ilə deyil, həm də havada əldə edilən üstünlük və hava hücumundan müdafiə sistemlərinin effektiv fəaliyyəti ilə seçildi. Müharibənin ilk günlərindən Azərbaycan Ordusu düşmən üzərində hava üstünlüyünü tam şəkildə ələ aldı. Hərbi Hava Qüvvələrimizin planlı və dəqiq fəaliyyəti nəticəsində düşmənin müdafiə xətləri, rabitə mərkəzləri, artilleriya mövqeləri və texnikası dəqiq zərbələrlə məhv edildi.

44-günlük müharibə ərzində Hərbi Hava Qüvvələrimiz düşmənin 200-dən artıq tankını, 90-a yaxın artilleriya batareyasını, yüzlərlə avtomobil kalonunu və hava hücumundan müdafiə sistemlərini məhv etdi.

Tədbirdə tarixi Zəfər gününə həsr olunmuş sənədli film nümayiş olunub. Mövzu ilə bağlı müzakirələr aparılıb.

Bədii hissədə H.Aslanov adına Ordu İdeoloji İş və Mədəniyyət Mərkəzinin solistlərinin hərbi vətənpərvərlik mahnıları ifa olunub.

Tədbirin sonunda tədbir iştirakçıları ilə birlikdə xatirə şəkli çəkdirilib.

*Nuranə NƏCƏFOVA*
*Hərb Tarixi muzeyinin tədqiqatçı-elmi işçisi*